***Natella Asena***




# *Xoş gəlmisən,*
# *Sən ömrümə 60 yaşım*

**Məndən ayrı**
**Keçən yaşım,**
**Mənə sarı**
**Qaçan asim**
**Altmış yaşım!**

**Bu sürəcə**
**Mən sadəcə,**
**Neçə-neçə**
**İncə sözə**
**çiçək rəngdə**
**şeir yazdım...**

**İnan, dünən**
**bantlı qızdım,**
**həm atalı,**
**həm analı,**
**yallı gedən**
**uzun saçlı**
**şehli yazdım...**

**Xoş gəlmisən**
**Sən ömrümə!**
**Bil, ZİRVƏSƏN,**
**həm inamsan,**
**həm imansan,**
**Od məşəlim,**
**Adım-sanım-**
**60 YAŞIM!**